# Azərbaycan Respublikasında balıq ehtiyatlarının mühafizəsi və balıq ovu Qaydalarının təsdiq edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Balıqçılıq haqqında" Azərbaycan Respublikası Qanunu ilə əlaqədar "Azərbalıq" Dövlət Balıqçılıq Təsərrüfatı Konserni tərəfindən hazırlanmış və Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi, Azərbaycan Respublikası Elmlər Akademiyası ilə razılaşdırılmış "Azərbaycan Respublikasında balıq ehtiyatlarının mühafizəsi və balıq ovu Qaydaları" təsdiq edilsin (əlavə olunur).

2. "Azərbaycan Respublikasının suveren ərazisinə daxil olan iqtisadi sektor üzrə Xəzər dənizdə və daxili su hövzələrində "Balıqovlama qaydaları haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 8 iyul tarixli 368 nömrəli qərarının birinci bəndi qüvvədən düşmüş hesab edilsin.

3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 24 sentyabr 1999-cu il
№ 152

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
1999-cu il 24 sentyabr tarixli, 152 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

Azərbaycan Respublikasında balıq ehtiyatlarının mühafizəsi və balıq ovu

QAYDALARI[1]

I fəsil

## ÜMUMİ MÜDDƏALAR

1. Azərbaycan Respublikasının balıqçılıq əhəmiyyətli su obyektlərində balıq ovu və balıq ehtiyatlarının mühafizəsi bu Qaydalarla tənzimlənir.

2. Balıq ehtiyatlarının ovlanması üçün istifadə edilən aşağıdakı su hövzələri balıqçılıq əhəmiyyətli su obyektləridir:

Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi;

çaylar, göllər, su anbarları, su təchizatı kanalları və digər yerüstü su axınları və sututarlar;

dövlətlərarası sərhədi müəyyən edən və ya sərhədi kəsib keçən yerüstü su obyektləri.

3. Yerüstü su obyektlərinin balıqçılıq təsərrüfatlarının ehtiyacları üçün istifadəyə verilməsi Azərbaycan Respublikasının su qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

4. Balıq ovu aşağıdakı məqsədlərlə həyata keçirilir:
sənaye, həvəskar və idman;
elmi-tədqiqat, balıqartırma və nəzarət;
təbii mühitə uyğunlaşdırma və köçürmə.
5. Dövlət Balıq Mühafizə Xidmətinin vəzifələri aşağıdakılardır:
balıq ehtiyatlarının mühafizəsi və qorunmasını təmin etmək;
balıq ehtiyatlarının istifadəsi, mühafizəsi və qorunması sahəsində inzibati xətalar üzrə işləri məhkəməyə göndərmək və məhkəmə qərarlarını icra etmək;
balıqçılıq haqqında qanunvericiliyin pozulmasına yol verən şəxslərin məsuliyyətə cəlb edilməsi barədə materialları müvafiq orqanlara göndərmək;
qanunvericilikdə nəzərdə tutulmuş qaydada digər vəzifələri həyata keçirmək.
6. Dövlət Balıq Mühafizə Xidmətinə aşağıdakı hüquqlar verilir:
dövlət sututarlarını və ya onların müəyyən hissəsini (dövlət orqanları istisna olmaqla) sənaye, həvəskar və idman balıq ovu üçün ayırmaq;
balıqçılıq subyektlərinə balıq ehtiyatlarından istifadə hüququ vermək və balıq ovuna verilmiş icazə sənədlərini, ov alətlərini, ovlanmış balıqları və onların qeydiyyatına dair sənədləri yoxlamaq;
Azərbaycan Respublikasının daxili sularında, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub bölməsində, sərhəd su obyektlərində qeyri-qanuni *balıq və digər su bioresurslarının ovunu həyata keçirən*, o cümlədən xarici dövlətlərə məxsus gəmiləri, qayıqları, başqa üzən qurğuları saxlamaq və yoxlamaq;[2]
Azərbaycan Respublikasının beynəlxalq sazişlərinin pozulması ilə balıq ovunu həyata keçirən gəmiləri müvəqqəti saxlamaq və onlar barədə qanunvericilikdə və beynəlxalq hüquqda nəzərdə tutulmuş tədbirlər görmək;
qanunsuz *balıq və digər su bioresurslarının ovunu həyata keçirən* hüquqi və fiziki şəxslərin əldə etdikləri balıq məhsullarını və ov alətlərini müəyyən edilmiş qaydada götürmək, su nəqliyyat vasitələrini saxlamaq;
balıq ehtiyatlarının istifadəsi və mühafizəsi sahəsində inzibati xəta barədə müəyyən edilmiş qaydada izahatlar almaq, protokollar, tərtib etmək, cərimələmək və digər tədbirlər görmək;
balıq ehtiyatlarının istifadəsi və mühafizəsi sahəsində cinayət və ya inzibati xəta törətmiş şəxsləri saxlamaq, onları hüquq-mühafizə orqanlarının sərəncamına vermək;
qanunvericiliyə uyğun olaraq, vətəgə əhəmiyyətli su obyektləri zonalarında nəqliyyat vasitələrini saxlamaq, yoxlamaq, zəruri halda saxlanılanların şəxsiyyətini müəyyənləşdirmək. Qanunun pozulması faktı aşkarlandıqda, lakin qanunu pozanın şəxsiyyətini hadisənin baş verdiyi yerdə müəyyənləşdirmək mümkün olmadıqda, Dövlət Balıq Mühafizə Xidmətinin əməkdaşları qanunu pozmuş şəxsi polisə, kənd, qəsəbə, şəhər icra orqanına apara bilər;
müəyyən edildiyi yerdən asılı olmayaraq (vətəgələrdə, gəmilərdə, qəbul məntəqələrində, hazırlanma və satış yerlərində), balıq ehtiyatlarının mühafizəsi və balıq ovu qaydalarının pozulması yolu ilə ovlanmış balıq, digər su heyvanları və bitkilərini götürərək qanunvericiliklə müəyyən edilmiş qaydada emal və ovlama ilə məşğul olan balıqçılıq təsərrüfatına və ya ticarət təşkilatlarına müqavilə qiymətləri ilə satmaq;
elmi tədqiqat balıqçılıq təşkilatları ilə razılaşma əsasında balıq ovunun ümumi qadağan müddətində dəyişiklik etmədən, hidrometeoroloji şəraitdən asılı olaraq, həmin müddəti 15 gün geriyə və yaxud qabağa çəkmək. Bu Qaydalarla təyin edilmiş qadağan müddətləri ovun başlanğıc və sonunu göstərən günlərə də aiddir;

qanunvericilikdə müəyyən edilmiş qaydada xidmət etdikləri ərazidə yerləşən balıq məhsulları istehsalı, ovlanması və artırılması ilə məşğul olan hüquqi və fiziki şəxslərin obyektlərinə, habelə balıqçılıq əhəmiyyətli su obyektlərinin ətrafında yerləşən sənaye, energetika, kənd təsərrüfatı və digər obyektlərə qanunvericiliklə müəyyən edilmiş qaydada daxil olmaq və balıqçılıq haqqında qanunvericiliyə əməl edilməsini yoxlamaq;

xidməti vəzifələrini yerinə yetirərkən balıq ovu ilə məşğul olan hüquqi və fiziki şəxslərin nəqliyyat vasitələrindən istifadə etmək;

balıqçılıq əhəmiyyətli su obyektlərində və onun sahil mühafizə zonalarında görülən işlər zamanı balıq ehtiyatlarının mühafizəsinə dair qaydalar, norma və başqa tələblərin, balıqların yaşayış mühiti, çoxalma şəraiti və miqrasiya yollarının sistematik olaraq pozulması hallarında, bu halların aradan qaldırılma müddətinə kimi həmin işləri məhdudlaşdırmaq və dayandırmaq;

bu Qaydaların sistematik və kobud surətdə pozulması hallarında balıq ovunu dayandırmaq;

balıqçılıq fəaliyyətinin subyektlərinə çatışmazlıqların aradan qaldırılması barədə rəsmi göstərişlər vermək;

bu Qaydaların pozulması nəticəsində balıq ehtiyatlarına ziyan vurulduğu hallarda ziyanın ödənilməsi üçün hüquqi və fiziki şəxslərə qarşı iddia qaldırmaq;

balıqkeçirici və balıqqoruyucu qurğuların işinə nəzarət etmək və müşahidə aparamaq;

Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

7. Qadağandır:

Dövlət Balıq Mühafizə Xidmətinin icazəsi olmadan balıqçılıq əhəmiyyətli su obyektlərindən balıq ovlanması və su bitkilərinin yığılması;

balıqçılıq əhəmiyyətli su obyektlərinə və onların sahələrinə sənaye, kommunal, kənd təsərrüfatı və digər müəssisələrin, habelə nəqliyyat növlərinin təmizlənməmiş və zərərsizləşdirilməmiş çirkab sularının axıdılması, həmçinin istehsalat, məişət və digər tullantıların atılması;

Dövlət Balıq Mühafizə Xidmətinin icazəsi olmadan balıqların kürüləmə yerlərində bənd vurulması və uçulmuş bəndlərin bərpa edilməsi;

Dövlət Balıq Mühafizə Xidmətinin, [3]Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin [4] razılığı ilə sanitar, hidrotexniki və meliorativ tədbirlərin həyata keçirilməsi halları istisna olmaqla, çayların, onun qollarının və kanalların qarşısının tamamilə kəsilməsi, göl, nohur və limanların suyunun boşaldılması.

8. Dövlət Balıq Mühafizə Xidmətinin müsbət rəyi olmadan qadağandır:

qiymətli balıq növlərinin kürüləmə yerlərini mühafizə edən, qırılması və kəsilməsi qadağan edilmiş meşə zolaqlarında, həmçinin nərə cinsli və qızıl balıqların kürüləmə yerləri olan çayların, onun qollarının və göllərin sahillərindən ən azı 1 km, nərə və qızıl balıqartırma zavodları və təsərrüfatlarından isə 3 km məsafədə meşə ağaclarının tədarükü;

balıqçılıq əhəmiyyətli su obyektlərinə və onun sahillərinə çirkab sularının axıdılması, həmin obyektlərdə və onun sahil zonalarında hidrotexniki qurğular və digər obyektlərin yerləşdirilməsi, tikintisi və yenidən qurulması, habelə qazma və partlayış işlərinin aparılması, faydalı qazıntıların çıxarılması, kabel, boru və digər kommunikasiyaların keçirilməsi, dərinləşdirmə, dibtəmizləmə, kənd təsərrüfatı və digər işlərin görülməsi;

gəmiçilik və balıqçılıq məqsədləri ilə çayların dayazlaşmış hissələrində təxirəsalınmaz dərinləşdirmə işləri, qəzaların qarşısının alınması və tutulmuş çayların məcburi açılması

işləri istisna olmaqla, balıqçılıq su obyektlərində partlayış işlərinin görülməsi. Qeyd edilən hallarda partlayış işləri görülərkən Balıq Mühafizə Xidməti təcili xəbərdar edilməlidir;

vətəgə əhəmiyyətli balıq növlərinin təbii kürüləmə yerlərindən və balıqovlama əhəmiyyətli sahələrin sahillərindən qum, torpaq və çınqılın götürülməsi;

balıqçılıq əhəmiyyətli su obyektlərində dərinləşdirmə və dibtəmizləmə işləri görülərkən çıxarılmış torpaq və digər məhsulların kürüləmə yerləri və balıqların qışlama yerlərinə atılması (boşaldılması), habelə bu su obyektlərində çətənə, dəri və s. kimi materialların isladılması və yuyulması;

balıq ehtiyatları, digər su heyvanları və bitkilərinə ziyan vura biləcək, kənd təsərrüfatı bitkilərinin boy artımına təsir göstərən stimulyatorların, onların mühafizə vasitələrinin, mineral gübrələrin və digər kimyəvi və qeyri-kimyəvi preparatların balıqçılıq əhəmiyyətli su obyektlərinə, onun sanitar zonalarına daşınması, saxlanması və tətbiqi;

xüsusi balıqqoruyucu qurğularla təmin edilmədən suvarma və digər məqsədlərlə balıqçılıq əhəmiyyətli su obyektlərindən suyun götürülməsi;

balıqçılıq haqqında Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş digər hallar.

9. Balıqçılıq haqqında qanunvericiliyin pozulmasında təqsiri olan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

## I I f ə s i l

## SƏNAYE BALIQ OVU

10. «Balıqçılıq haqqında» Azərbaycan Respublikası Qanununa əsasən sənaye balıq ovu ödənişlidir və qanunvericiliklə müəyyən edilmiş qaydada lisenziya almış hüquqi və fiziki şəxslər balıq ehtiyatlarından istifadəni Dövlət Balıq Mühafizə Xidməti tərəfindən verilən balıqovlama biletləri əsasında həyata keçirə bilərlər. Sənaye balıq ovu ilə məşğul olan hüquqi və fiziki şəxslərə Dövlət Balıq Mühafizə Xidməti tərəfindən müqavilə ilə sərhədləri bilinən vətəgə sahələri ayrılır. Vətəgə sahələrinin ayrılması haqqında müqavilədə ovlanan balıqların miqdarı, növləri və ölçüləri, balıq tutmaq üçün qadağan olunan ov alətləri, texniki vasitələr, digər qaydalar və şərtlər müəyyən edilir.

Balıq ovu alətlərini, texniki vasitələri saxlamaq, quraşdırmaq, habelə müvəqqəti yaşayış və istehsalat təyinatlı binalar tikmək və balıq ovu üçün digər işlərin görülməsi məqsədi ilə *balıq və digər su bioresurslarının ovunu həyata keçirənlərə* 50 metrədək enində sahil zolağı ayrılır. Həmin zolağın uzunluğu Balıq Mühafizə Xidməti tərəfindən müəyyənləşdirilir. [5]

11. Balıqovlayanlar aşağıdakıları yerinə yetirməyə borcludurlar:

Balıq Mühafizə Xidmətindən hər bir vətəgə və gəmi üçün balıqovlama biletləri almaq;

istifadə üçün onlara verilmiş sahələrdə kənar şəxslər tərəfindən qanunsuz balıq ovlanmasına icazə verməmək;

su nəqliyyatı vasitələrini xilasetmə ləvazimatları ilə təmin etmək;

balıq ehtiyatlarının məskunlaşdığı təbii şəraitə mənfi təsir göstərə bilən yeni balıq növlərinin, digər su heyvanları və bitkilərinin mühitə uyğunlaşmasına yol verməmək;

təbii su hövzələrində qanunvericilikdə nəzərdə tutulmuş qaydada balıq ehtiyatlarının məhsuldarlığının yüksəldilməsinə yönəldilən balıqartırma və balıq təsərrüfatı meliorasiya işləri aparmaq;

müvafiq icra hakimiyyəti orqanının yazılı göstərişinə əməl etmək;

təhkim olunmuş su obyektlərinin və ov edilən sahələrin sanitar vəziyyətini lazımi səviyyədə saxlamaq;

balıq ovlanan sahələrin sərhədlərini Balıq Mühafizə Xidməti ilə razılaşdırılmış nişangah nümunələrinə uyğun, ov alətlərinin isə həqiqətən onlara məxsusluğunu müəyyənləşdirmək məqsədi ilə xüsusi nişangahlarla təmin etmək;

icazə verildiyindən artıq və ya icazə verilməmiş ov alətlərindən istifadə etməmək;

ovu qadağan edilmiş balıqları və vətəgə ölçüsünə çatmamış nərəkimiləri dərhal diri halda suya buraxmaq;

balıq və ov alətlərinə təyin edilmiş limiti aşmamaq;

gəmiləri (ölçüsü və təyinatından asılı olmayaraq) müəyyən edilmiş qaydalara müvafiq qeydiyyat nömrələri ilə təmin etmək;

hər bir vətəgədə, ovlama məntəqəsi və gəmidə qəbul edilmiş qaydada balıq ovu jurnalı tərtib etmək, gündəlik qeydiyyat aparmaq və Balıq Mühafizə Xidməti tələb edərkən onu təqdim etmək;

balıqçılıq haqqında Azərbaycan Respublikasının qanunvericiliyinə əməl etmək.

12. Qadağandır:

balıqovlama biletləri olmadan sənaye məqsədləri ilə balıqların ovlanması;

nəsli kəsilmək üzrə olan qiymətli balıq növlərinin (kələmo, poru, ilanbalığı, dəniz sufu, qızıl xallı) sənaye məqsədləri ilə ovlanması. Sənaye məqsədləri ilə balıq ovunda bu balıqlar ov alətinə düşdüyü halda, onlar suya buraxılmalıdır (ölmüş balıqların balıqçılıq sənayesi tərəfindən qəbuluna icazə verilir);

əlverişsiz hava şəraitində balıq ovu;

balıq ehtiyatlarından istifadəyə görə ödəmələr verilmədən balıqların ovlanması;

qadağan edilmiş vaxtda və ya icazə verilməyən yerlərdə balıq ehtiyatlarının ovlanması;

ölçüləri bu Qaydalarla icazə verilən ov alətlərinin ölçülərinə uyğun gəlməyən ov alətlərinin tətbiq edilməsi;

sürütmə torlardan (volokuşa) istifadə edilməsi;

dənizə, su anbarlarına və göllərə axan çayların mənsəbində 500 metrlik radiusda balıqların ovlanması;

nərə cinsli balıq növlərinin açıq dənizdə sənaye məqsədləri ilə ovlanması;

Kür çayında törədici qızılbalıqların ovu istisna olmaqla, çayın üçdə iki hissəsinin ov alətləri və balıq ovu üçün ixtisaslaşdırılmış digər qurğularla əhatə edilməsi, həmçinin hər iki sahildən eyni vaxtda nevodların atılması;

uzunluğu 18-25 metrdən artıq olan qurma torlarla balıq ovu;

iqlimləşdirmə məqsədi ilə su hövzəsində köçürülmüş balıqların (kefaldan başqa) ~~xüsusi~~ icazə olmadan ovlanması;

parazitlər və infeksiya nəticəsində xəstələnmiş balıqlar müşahidə olunan su hövzələrində ov alətlərinin əvvəlcədən dezinfeksiya olunmadan digər hövzələrə köçürülməsi;

bu Qaydalara əsasən müəyyən edilmiş ərazidə və müddətdə tətbiqi qadağan edilən ov alətləri ilə partlayıcı və zəhərləyici maddələrlə (Dövlət Balıq Mühafizə Xidmətinin razılığı ilə bu maddələrin tətbiq edildiyi işlər istisna olmaqla) su obyektlərində və onun yaxınlığında olmaq;

xüsusi sərəncam olmadan yeni təşkil edilmiş sututarlarda və su anbarlarında balıq ovu;

çayların məcrasında balıqların qışlama yerlərinə kimi 1 km məsafədə vətəgələrin açılması, bəndlərin salınması, üzən nəqliyyatın olması, habelə çayın məcrası və qolları nəzərə alınmaqla vətəgələrin arasında məsafənin 1 km-dən az olması, həmçinin qarşı-qarşıya duran yeni vətəgələrin yaradılması;

dayanan torların və nevodların, habelə tələ quruluşlu digər ov alətlərinin şahmat qaydası üzrə qurulması, həmçinin nevodların arasında və onların ətrafında 1 km məsafədən yaxında hər hansı digər ov alətləri ilə ov edilməsi;

qazanların sayından asılı olmayaraq, nevodun ümumi uzunluğunun 1 km-dən çox, onların arasındakı məsafənin isə 1 km-dən az olması;

partlayıcı və zəhərləyici maddələrin, qarmaq və kustar üsulu ilə düzəldilmiş iti uclu digər alətlərin, odlu və pnevmatik silahların, həmçinin elektrik cərəyanının tətbiq edilməsi ilə balıq ovu (sənaye məqsədləri ilə kilkə ovunda istifadə edilən elektrik lampaları istisna olmaqla);

qovub tutma, qarmaq batırma, tilovlama, ilişdirmə, ağacla vurma üsulları ilə balıqların ovlanması;

kapron və kətan liflərdən hazırlanmış torlar istisna olmaqla, digər sintetik və mononit saplardan hazırlanmış torlarla balıq ovu.

13. Axçalı balıqların vətəgə ölçüsü, ağzının bağlı vəziyyətində burnunun ucundan quyruq üzgəcinin orta şüalarının başlanğıcına qədər olan məsafəni ölçməklə, nərə cinsli balıqların vətəgə ölçüsü isə onun burnunun ucundan quyruq üzgəcinin ən dərin çuxuruna qədər olan məsafənin ölçülməsi yolu ilə təyin edilir.

14. Ov alətlərinə düşmüş vətəgə ölçülərinə uyğun gəlməyən balıqların bu Qaydalarda müəyyən edilmiş norma həddində ovlanması və qəbuluna yol verilir. Venter, karava, atılan və dayanan nevod, habelə digər ov alətlərinə düşən vətəgə ölçülərinə çatmamış nərə cinsli balıq növləri dərhal diri halda suya buraxılmalıdır. Vətəgə ölçülərinə çatmamış balıqların miqdarı təyin edilmiş normadan artıq olarsa, həmin yerdə ov dayandırılır və ya gözünün ölçüləri böyük olan digər ov alətləri ilə əvəz edilir.

15. Bu Qaydalarda nəzərdə tutulan ölçülərdən kiçik, habelə icazə verilməmiş ölçüləri olan ov alətləri ilə balıq ovu qadağandır. Ov alətlərində torun gözünün ölçüləri hörmə üzrə 11 düyünün arasındakı məsafənin ölçülüb həmin rəqəmin 10-a bölünməsi yolu ilə təyin edilir. Kətan iplikdən hazırlanmış yaş halda ov alətlərinin gözləri ölçülərkən müəyyən edilmiş ölçülərin 5 faiz azaldılmasına yol verilir.

## OVLAMA YERLƏRİ VƏ MÜDDƏTLƏRİ

16. Bütün il boyu sənaye məqsədləri ilə balıqların ovlanması qadağandır:

Kür çayının mənsəbinin qarşısındakı sahələrdə: çayın əsas qolunun sağ sahilindən Cənub-Şərq Qoltuq yaşayış məntəqəsi istiqamətindəki dəniz ləpədöyəninə qədər düz xətt üzrə 9 km-lik məsafədə, əsas qolun sol sahilindən Şimal-Şərq Qoltuq yaşayış məntəqəsi istiqamətindəki dəniz ləpədöyəninə qədər 9 km-lik məsafədə və bu kənar nöqtələrdən orta dəniz ləpədöyəni ilə Xəzər dənizinin dərinliyinə doğru 7 km-lik sahədə;

Dəniz ləpədöyənindən Kür çayından əsas qolun (Bala Kür) ayrıldığı ərazilərə kimi, Sabirabad rayonunun Bala Həşimxanlı kəndindən Varvara SES-in bəndinə qədər olan sahədə;

Arazda su anbarı istisna olmaqla bütün çay boyu;

su bəndləri, şlüzlər və körpülərdən 500 metr məsafəyədək ərazilərdə.

17. Aşağıda göstərilən müddətlərdə sənaye məqsədləri ilə balıq ovu qadağan edilir:

Şabran limanını dəniz ilə birləşdirən mənsəbyanı sahədə hər iki tərəfə 1 km, dənizin içərisinə doğru 2 km-lik ərazidə yanvarın 1-dən avqustun 15-nə kimi;

Kür çayının qadağan sahəsinin şimal sərhədindən Sabirabad rayonunun Bala Həşimxanlı kəndinə qədər olan sahədə aprelin 1-dən mayın 31-nə kimi;

Kür çayının əlavə sularında mart ayının 1-dən avqustun 15-nə kimi, Candargöl və Sarısu sistemi də daxil olmaqla aprel ayının 15-dən avqustun 31-nə kimi;

Böyük Qızılağac körfəzinin sahələrində: Kür dilinin cənub qurtaracağından Kiçik Qızılağac körfəzinin suburaxma kanalının sərhədinə qədər olan ərazilərdə mayın 1-dən 31-dək;

Kiçik Qızılağac körfəzinin balıqkeçirici kanaldan 1 km şimala və 1 km cənuba, habelə dənizin içərisinə doğru 3 km ərazilərdə fevral ayının 1-dən mayın 1-nə kimi;

Mingəçevir, Varvara, Şəmkir, Ağstafa və Araz su anbarlarında aprelin 1-dən avqustun 1-dək;

Kür çayında və Xəzər dənizində (gölündə) qızıl balıqların may ayının 30-dan oktyabr ayının 15-nə kimi ovlanması;

Mingəçevir, Varvara və Araz su anbarlarında aprel ayının 1-dən oktyabr ayının 1-nə kimi xərçəng ovu;

dayanan nevodlarla aprel ayının 1-dən sentyabr ayının 15-ə kimi sahil kilkə ovu;

kanal və kollektorların mənsəbi, habelə gəmilərlə kilkə ovu istisna olmaqla Xəzər dənizində may ayının 1-dən 31-nə kimi sənaye məqsədləri ilə balıq ovu;

H.Z.Tağıyev adına qəsəbədən Rusiya Federasiyasının sərhədlərinə qədər olan ərazilərdə atılan dəniz nevodları ilə may ayının 1-dən mart ayının 1-nə kimi siyənək balıqlarının ovlanması;

Xəzər dənizində (gölündə) aprel ayının 1-dən fevral ayının 1-nə kimi dayanan siyənək torları (28—44 mm-lik) ilə siyənək balıqlarının ovlanması.

## OV ALƏTLƏRİ VƏ OVLAMA ÜSULLARI

18. *Balıq və digər su bioresurslarının ovunu həyata keçirənlərə* mövcud qaydalarda göstərilən müddətlərdə və yerlərdə aşağıdakı ov alətləri ilə balıq ovlamağa icazə verilir: [6]

18.1. Çaylarda:

Kür çayında atılan nevodla — yazda gözlərinin ölçüləri iri axçalı balıq növlərinin ovlanmasına, payızda isə gözlərinin ölçüləri kiçik olan axçalı balıq növlərinin ovlanmasına uyğun seçilməklə;

Kür çayında üzən çay torları ilə.

18.2. Daxili su hövzələrində:

Gözlərinin ölçüləri 40 mm-dən kiçik olmayan qurma torlarla;

Gözlərinin ölçüləri qazanda 30-mm-dən, qollarda 44-mm-dən kiçik olmayan dayanan nevod, venter (kisə tor) və tələ formalı digər ov alətləri ilə;

Gözünün ölçüləri 28 və 30 mm-lik qurma şamayı torları ilə.

18.3. Dəniz sularında:

Kür çayının mənsəbindəki və bu Qaydalarda göstərilən digər qadağan olunmuş ərazilər istisna olmaqla, hər yerdə nevodlarla balıq ovu;

qadağan müddəti istisna olmaqla porejli (üç divarlı) kefal torları və atılan kefal nevodları ilə ov zamanı (nərə cinsli balıqlar istisna olmaqla) onun ümumi miqdarının 30 faizi həcmində digər balıqların ovlanmasına yol verilir;

konusşəkilli torlar və balıq sovuran nasoslarla kilkə balıqlarının ovlanması;

venterlərin bütün növləri ilə, həmçinin tələ quruluşlu digər ov alətləri ilə balıq ovu;

atılan və dayanan nevodlara, həmçinin digər stasionar ov alətlərinə düşən vətəgə ölçülü nərəkimilərin qəbul edilməsi.

Balıq Mühafizə Xidmətinin razılığı ilə sentyabr ayının 1-dən martın 15-nə kimi müddətlərdə gözünün ölçüsü 40—55 mm-lik axçalı balıq torları ilə axçalı balıqların ovu zamanı mütəmadi olaraq nərəkimilərin körpələrinin tora düşdüyü müşahidə olunarsa, ov alətləri dərhal sudan çıxarılmalıdır;

kollektorların, kanalların məcrasında qadağan olunmamış bütün ov alətləri, həmçinin həmin kollektor və kanalların mənsəbindən sağ və sol tərəfə, eləcə də dənizə doğru 500 m-lik ərazidə il boyu dayanan nevod, qurma tor, venter və karavalarla balıqların ovlanması.

19. Venterlərin tətbiq edilməsinin şərtləri:

venter və ya sekretlərdə (tələ tor) qurğuların arasında düz xətt üzrə məsafə ən azı 2,5 m, qurğuların xətləri arasında məsafə dənizdə və çaylarda ən azı 50 m olmalıdır;

dənizdə çəpərləri bir-birinə bağlanmış 3 venterlərin qurulmasına icazə verilməli;

çəpərlərin uzunluğu 40 m-dən çox olmamalıdır.

20. Su kanalları mənsəbindən və balıqkeçici kanalların başlanğıcından 500 m radiusda onların istifadə edilməsi qadağandır.

## BALIQLARIN VƏTƏGƏ ÖLÇÜLƏRİ

21. Vətəgə əhəmiyyətli balıqların minimum ölçüləri (sm):

| | |
|---|---|
| bölgə dənizdə — | 180 |
| bölgə Kürdə — | 165 |
| nərə dənizdə və Kürdə — | 105 |
| uzunburun dənizdə — | 110 |
| uzunburun Kürdə — | 90 |
| suf — | 43 |
| suf daxili su hövzələrində — | 29 |
| çəki — | 40 |
| kütüm — | 35 |
| xramulya — | 24 |
| kefal — | 24 |
| şamayı — | 19 |
| şirbit — | 52 |
| çapaq — | 26 |
| külmə — | 17 |
| xəşəm — | 41 |
| qarasol — | 17 |
| qarabel siyənək — | 20 |
| şişqarın siyənək — | 14 |
| kür qızılbalığı — | 76 |
| adi kilkə — | 6 |
| irigöz və ançousabənzər kilkə — | 7 |

Vətəgə ölçülərinə çatmamış balıq növlərinin ovlanmasına yol verilən norma həddi

22. Atılan nevod və üzən torlarla vətəgə ölçülərinə uyğun gəlməyən axçalı balıqların miqdarı, bir dəfə tor süzüldükdən sonra ümumi ovun 8 faizindən, qurma axçalı balıq torları ilə ov zamanı 15 faizindən, dayanan nevod, venter, karava və tələ quruluşu digər ov alətləri

ilə ov zamanı 40 faizindən, kilkə nevodları ilə ov zamanı 50 faizindən çox olmamaqla ovlanmasına yol verilir.

23. Gəmilərlə kilkə ovunda ov alətlərinə düşən (konus tor və nasoslar) siyənək və digər axçalı balıqların miqdarının ovun 0,3 faizindən çox olmasına yol verilmir. Dayanan nevodlarla və gəmilərlə kilkə ovunda vətəgə ölçülərinə uyğun gəlməyən kilkələr ümumi ovun 20 faizindən çox olmamalıdır.

24. Ov alətlərinin gözünün yol verilən minimum ölçüləri (mm-lə)

24.1. Kür çayında

| | ensiz hissə | enli hissə | ov alətinin uzunluğu |
|---|---|---|---|
| Üzən torlar — yazda | 35 | — | 235 m |
| payızda və qışda | 55 | — | — |
| Qızıl balıqların xüsusi ovu üçün torlar | 60 | 117 | — |

| Atılan nevodlar | qazanda | qollarda | qollarda | ov alətinin uzunluğu |
|---|---|---|---|---|
| yayda və yazda | 35 | 50 | 44 | 400,5 m |
| payızda və qışda | 30 | 36 | 40 | 400,5 m |

| 24.2. Dənizdə: | ensiz hissə | enli hissə | ov alətinin uzunluğu |
|---|---|---|---|
| Kefal ovlanması üçün porejli torlar | 32 | 300 | 351,5 m |
| | gözünün ölçüləri | | ov alətinin uzunluğu |
| Axçalı balıq torları | 40 və 55 | | 18—25 m |
| | motnada və ya qazanda | köməkçi qollarda və ya dəhlizdə | qollarda |
| Dayanan nevodlar | 30 | 33 | 44 |
| Venterlər | qazanda 30 | qollarda 40 | |

Kilkə torları (konus tor və dayanan nevodlarda) gözünün ölçüləri 6,5x6,5 mm

| Daxili su hövzələrində | gözünün ölçüləri | ov alətinin uzunluğu |
|---|---|---|
| Qurma torlar | 28, 30 və 40-dan böyük | 18—25 m |

**Qeyd**. Atılan nevodların bütün növlərində hər bir köməkçi qolların, yaxud dəhlizin uzunluğu, həmin ov alətlərinin qollarının və ya çəpərinin uzunluğunun üçdə birindən çox olmamalıdır.

III fəsil

## ELMİ-TƏDQİQAT, BALIQARTIRMA, NƏZARƏT, BALIQKÖÇÜRMƏ, İQLİMLƏŞDİRMƏ MƏQSƏDLƏRİ İLƏ BALIQ OVU

25. «Balıqçılıq haqqında» Azərbaycan Respublikası Qanununa əsasən elmi-tədqiqat və nəzarət, təbii mühitə uyğunlaşdırma və balıqköçürmə, habelə süni balıqartırma məqsədi ilə (sonradan elmi-tədqiqat və balıqartırma məqsədi ilə balıq ovu adlanacaq) balıq ehtiyatlarından istifadə edilə bilər.

26. Elmi-tədqiqat və balıqartırma məqsədi ilə balıq ovuna ~~xüsusi~~ icazə, balıq ehtiyatlarının vəziyyətinin tədqiqi və balıq ovu limitlərinin müəyyənləşdirilməsi, təbii mühitə uyğunlaşdırılması və köçürülməsi, həmçinin balıq ehtiyatlarının süni yolla artırılması və bərpası ilə məşğul olan hüquqi və fiziki şəxslərə verilir. Balıqçılıq əhəmiyyətli su obyektlərində balıqların və digər su heyvanlarının mühitə uyğunlaşdırılması və köçürülməsi Azərbaycan Elmlər Akademiyasının rəyi, Dövlət Balıq Mühafizə Xidməti və Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsinin razılığı əsasında aparılır.

Elmi-tədqiqat və balıqartırma məqsədi ilə balıq ovuna ~~xüsusi~~ icazələr Dövlət Balıq Mühafizə Xidməti tərəfindən, hüquqi və fiziki şəxslərin təsdiq edilmiş elmi-tədqiqat işlərinin tematik planına müvafiq sifarişi əsasında verilir. Sifarişə görüləcək işin proqramı və elmi-tematik planın çıxarışı əlavə edilir. Təsdiq edilmiş plana və tərtib edilmiş izahata əsasən balıqartırma müəssisələri törədicilərin ovuna xüsusi icazə ala bilərlər. Sifarişdə və izahatda ovun məqsədləri və müddəti, ov ediləcək ərazilər və onun sahələri, ov alətlərinin çeşidi, sayı, ölçüləri, ovlanması planlaşdırılmış balıqların növləri və sayı, ona cavabdeh şəxsin adı, soyadı, atasının adı və vəzifəsi, habelə ovlanmış balıqların sonrakı taleyi barədə ətraflı məlumatlar verilməlidir.

27. Dövlət Balıq Mühafizə Xidməti bütün su obyektlərində (dövlət qoruqları istisna olmaqla) və ilin bütün fəsillərində qadağan edilməmiş ov alətləri ilə elmi-tədqiqat və balıqartırma məqsədləri ilə, həmçinin yeni ov alətlərinin sınaqdan çıxarılması və yeni ov üsullarının yoxlanılması məqsədi ilə ovuna ~~xüsusi~~ icazələr verə bilər.

28. Su orqanizmlərinin böyük həcmdə ovlanması ilə bağlı olan işlərin görülməsi zamanı (ixtioloji çəkilmiş, yeni ov alətlərinin sınaqdan çıxarılması və s.) əgər ovlanacaq obyektlərin miqdarını qabaqcadan müəyyən etmək mümkün deyilsə, bu barədə sifarişdə göstərilməli və icazədə öz əksini tapmalıdır. Belə işlərin görülməsi və qiymətli balıq növlərinin (nərəkimilər və qızılbalıqlar) ovlanması zamanı müvafiq elmi-tədqiqat müəssisələrinin alimlərinin və yüksək ixtisaslı mütəxəssislərin, habelə Dövlət Balıq Mühafizə Xidməti nümayəndələrinin iştirakı ilə təmin edilməlidir. Ovun sonunda ovlanmış balıqların miqdarı barədə yekun aktı tərtib edilməlidir.

29. Elmi-tədqiqat işinin metodikası və ovun xarakterindən asılı olaraq tədqiqat işi üçün lazım olan bioloji materiallar sənaye balıq ovu vətəgələrindən götürülə bilər.

30. ~~Xüsusi~~ icazə vərəqələri mətbəə üsulu ilə çap edilir və elmi-tədqiqat və balıqartırma məqsədləri ilə balıq ovuna hüquq verən yeganə sənəddir. ~~Xüsusi~~ icazənin surətinin çıxarılması qadağandır.

31. ~~Xüsusi~~ icazələr Dövlət Balıq Mühafizə Xidmətinin rəisi tərəfindən imzalanır və gerbli möhürlə təsdiq edilir. ~~Xüsusi~~ icazənin ovun aparılmasına məsul olmayan şəxsə verilməsi qadağandır.

32. ~~Xüsusi~~ icazə onda göstərilən müddətlərdə istifadə edilmədikdə qüvvəsini itirir.

33. Elmi-tədqiqat və balıqartırma məqsədləri ilə sahil balıq ovuna ~~xüsusi~~ icazə almış şəxslər ov edilən ərazilərə nəzarət edən balıq mühafizə xidmətindən briqadaları üçün ovlama biletləri almalıdırlar.

34. Ovun sonunda onun nəticələri barədə 3 nüsxədən ibarət akt tərtib edilməlidir. Akt ova cavabdeh olan şəxs, Balıq Mühafizə Xidməti və balıqovlayanlar tərəfindən təsdiq edilir. Laboratoriya müayinəsi üçün götürülmüş balıqlar tədqiqat işləri zamanı çıxdaş edildikdən sonra da çıxdaş aktı tərtib edilməlidir.

35. Elmi-tədqiqat və nəzarət ovunda tədqiqat işləri aparıldıqdan sonra balıqlar, həmçinin balıqartırma məqsədi ilə ovda tora düşən digər balıq növləri qaimə əsasında

balıqçılıq sənayesinin qəbul məntəqələrinə və ya ticarət təşkilatlarına müqavilə qiymətlərilə satıla bilər.

36. Ovun müddəti qurtardıqdan sonra hüquqi və fiziki şəxslər Dövlət Balıq Mühafizə Xidmətinə ovun nəticələri barədə hesabat təqdim etməlidirlər. Hesabata ovun keçirilməsi barədə aktın bir nüsxəsi, təhvil verilmiş balıqların qaimələri və ya çıxdaş aktı, həmçinin Dövlət Balıq Mühafizə Xidməti tərəfindən verilmiş xüsusi icazə vərəqi əlavə edilməlidir.

I V  f ə s i l

## İDMAN VƏ HƏVƏSKAR BALIQ OVU

37. Qoruqlar, balıqartırma vətəgələri və təsərrüfatları istisna olmaqla, bütün sututarlardan qanunvericilikdə müəyyən edilmiş qaydalara riayət etməklə idman və həvəskar balıq ovu üçün istifadə edilə bilər.

38. İdman və həvəskar balıq ovu üçün dövlət sututarları və ya onların müəyyən hissəsinin ayrılması Dövlət Balıq Mühafizə Xidməti və Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi tərəfindən həyata keçirilir.

39. Ayrıca istifadədə, bələdiyyə mülkiyyətində və xüsusi mülkiyyətdə olan su obyektlərində idman və həvəskar balıq ovu, su obyektlərinin istifadəçiləri və mülkiyyətçilərinin razılığı ilə həyata keçirilir.

40. İdman və həvəskar balıq ovu Ovçular və balıqçılar cəmiyyəti tərəfindən verilmiş icazə vərəqələri əsasında həyata keçirilir.

41. Təbiəti mühafizə, balıqçılıq, ovçuluq, idman və digər cəmiyyətlərin, təşkilatların və mülkiyyətçilərin istifadəsində olan sututarlarda idman və həvəskar balıq ovuna icazə vərəqələri su obyektlərinin mülkiyyətçiləri və ya istifadəçiləri tərəfindən verilir.

42. Su obyektləri və onun sahələrində müəyyən edilmiş qaydada həvəskar və idman balıq ovu və ya Ovçular və balıqçılar cəmiyyətinin mədəni balıqçılıq təsərrüfatı təşkil edilə bilər.

43. Su obyektləri və onun sahələrindən balıqçılıq üçün istifadə şərtləri Balıq Mühafizə Xidməti ilə cəmiyyətlər arasında bağlanmış müqavilələr əsasında müəyyənləşdirilir.

44. Ovçular və balıqçılar cəmiyyətlərinin mədəni balıqçılıq təsərrüfatlarının yaradılması işlərinə dair müqavilə şərtləri və ya ayrılmış su obyektlərində idman və həvəskar balıq ovu, balıq ehtiyatlarının bərpası və mühafizəsi işlərinin təşkilinə dair şərtlər sistematik olaraq yerinə yetirilmədikdə, Balıq Mühafizə Xidməti tərəfindən bu müqavilələr müəyyən olunmuş qaydada pozula bilər.

45. Balıq ovu üzrə idman yarışları respublika, rayon və ya rayonlararası ovçular və balıqçılar cəmiyyətləri, həmçinin digər könüllü idman cəmiyyətlərinin balıq ovu bölmələri tərəfindən müəyyən edilmiş qaydada keçirilir. Yarışın yerləri və müddətləri Balıq Mühafizə Xidməti ilə razılaşdırılır.

46. Balıq Mühafizə Xidməti ilə müvafiq müqavilələr bağlayan ovçular və balıqçılar cəmiyyətlərinin vəzifələri:

İdman və həvəskar balıq ovu qaydalarına ciddi əməl etmək;

Balıq Mühafizə Xidməti ilə bağladıqları müqavilə şərtlərini yerinə yetirmək;

Balıq Mühafizə Xidməti ilə razılaşmaqla balıqartırma-meliorativ tədbirləri keçirmək;

su obyektlərinə gələn həvəskar *balıq və digər su bioresurslarının ovunu həyata keçirənlər* üçün əlverişli şərait yaratmaq (balıq ovuna icazə alınması üçün məntəqələr, qayıq stansiyaları, gecələmək üçün yerlər, məişət tullantıları və zibilin mərkəzləşdirilmiş qaydada toplanması və daşınması, habelə digər xidmətlər);[7]

su obyektlərinə gələn həvəskar *balıq və digər su bioresurslarının ovunu həyata keçirənlərin* və onlar tərəfindən ovlanan balıqların növlər üzrə çəkisi və sayının mütəmadi uçotunu aparmaq;

müqavilə şərtlərinin yerinə yetirilməsi üçün cəmiyyətlərə təhkim edilmiş su obyektlərinin məhsuldarlığını artırmaq və ixtiofaunanın vəziyyətini yaxşılaşdırmaq istiqamətində rəy hazırlanması və həyata keçirilməsi üçün elmi-tədqiqat təşkilatları ilə razılaşma aparmaq;

Balıq Mühafizə Xidməti ilə razılaşma əsasında xüsusi nişangahlara uyğun olaraq su obyektlərinin sərhədlərini nişanlamaq.

47. İdman və həvəskar balıq ovu ilə məşğul olan vətəndaşların vəzifələri:

bu Qaydalara və su obyektinə təyin edilmiş balıq ovu rejiminə riayət etmək;

su obyektinin sanitar vəziyyətini lazımi səviyyədə saxlamaq, hövzənin sahilinin zibil və digər tullantılarla çirklənməsinə yol verməmək;

Ovçular və balıqçılar cəmiyyətlərinin üzvlərində şəxsiyyəti təsdiq edən üzvlük biletləri, balıq ovu icazə əsasında aparıldıqda isə icazə vərəqəsi olmalıdır;

su obyektlərində və idman balıq ovu bazalarında ictimai asayişi pozmamaq, pozğunçuluğun qarşısının alınmasında bu Qaydaları pozanların yaxalanmasında Daxili işlər orqanlarının vəzifəli şəxslərinə kömək göstərmək;

su obyektlərinin sahillərindəki yaşıllığın qayğısına qalmaq;

su obyekti və onun sahillərindəki göstərici, lövhə və digər nişangahların sındırılması və sıradan çıxarılmasına yol verməmək.

48. Qadağandır:

Azərbaycan Respublikasının «Qırmızı kitabı»na daxil edilmiş balıq növləri, nərə cinsli balıq növləri, Kür qızılbalığı, ağ qızılbalıq və dəniz məməlilərinin idman və həvəskar ovu məqsədləri ilə hər yerdə və il ərzində ovlanması;

Balıq Mühafizə Xidmətinin razılığı olmadan həvəskar balıqçılar — üçün nəzərdə tutulmamış yeni ov alətləri və ov üsullarının tətbiqi ilə balıq ovu;

qadağan edilən ov alətləri, habelə partlayıcı və zəhərləyici maddələrlə su obyektinin yaxınlığında olmaq;

respublikanın bütün su hövzələrində il boyu balıq körpələrinin ovlanması;

sualtı balıq ovu üçün ixtisaslaşdırılmış tapança və tüfənglərin tətbiqi istisna olmaqla, partlayıcı və zəhərləyici maddə, odlu və pnevmatik silahların, həmçinin elektrik cərəyanının tətbiqi;

birləşdirici magistral kanallar və balıqçılıq təsərrüfatı meliorativ sistemdə, habelə şlyüzlü kanallarda balıq ovu;

qeydiyyatdan keçməmiş və ya gövdəsində dəqiq nömrəsi olmayan üzən vasitələrlə balıq ovu;

qoruqlar, balıqartırma vətəgələri və təsərrüfatlarında, habelə Kürağzı qadağan zonasında balıq ovu;

ovçular cəmiyyətlərinə məxsus olan su obyektlərində sənaye üsulu ilə balıq ovunun aparılması.

49. Ovçular və balıqçılar cəmiyyətlərinə idman və həvəskar balıq ovuna, qadağan olunmuş yerlər və müddətlər istisna olmaqla, il boyu aşağıdakı ov alətlərindən istifadəyə icazə verilir:

hər bir ov alətində qarmaqların sayı 3 ədəddən çox olmamaq şərtilə tilov və spininqlə;

Həvəskar və idman balıq ovu zamanı bir balıqçı eyni zamanda bir neçə ov alətindən istifadə edərsə, bu zaman qarmaqların ümumi sayı 7 ədəddən çox olmamalıdır. Su

hövzəsində olduğu müddətdən asılı olmayaraq gündəlik normadan, yəni 5 kq-dan çox olmayaraq balıq ovlanması (Ovlanmış bir balığın çəkisinin 5 kq-dan çox olması halları istisna edilir. Durna balığı və naxanın ovuna məhdudiyyət qoyulmur.);

lövbərciklə ağırlaşdırılmış balıqcıqlar (metaldan) ilə, leskanın uzunluğu 30 m-dən, diametri 0,7 mm-dən artıq, qarmağın ölçüsü 12 nömrədən çox olan tilovlarla və spininqlə balıq ovu;

bir nəfərin 3 ədəddən çox xərçəngtutandan istifadəsi və gün ərzində 20 ədəddən çox xərçəng ovlanması, habelə diametri 0,5 m-dən və 1 ədəddən çox domcadan istifadə etməsi, o cümlədən 1 kq-dan artıq krevet və digər onurğasızların ovlanması.

50. Ovlanmasına icazə verilən balıq və su onurğasızlarının minimum ölçüləri (sm ilə):

| | |
|---|---|
| Suf | 43 |
| Çəki | 40 |
| Çapaq | 26 |
| Külmə | 17 |
| Qarasol | 17 |
| Xəşəm | 41 |
| Kütüm | 35 |
| Kefal | 24 |
| Şamayı | 18 |
| Şirbit | 52 |
| Qarabel siyənək | 20 |
| Şişqarın siyənək | 14 |
| Xramulya | 24 |
| Xərçəng | 10 |

Balıqların ölçüləri ağzının bağlı vəziyyətində, burnunun ucundan quyruq üzgəcinin orta şüalarının əsasına qədər olan məsafəni ölçməklə təyin edilir. Xərçəng isə gözündən quyruğunun sonuna qədər məsafə ilə ölçülür. Ovlanmış balıqlar və xərçənglər təyin edilmiş ölçülərdən kiçik olarsa, habelə qadağan edilmiş balıq növləri ovlanarsa, onlar diri halda yenidən həmin su obyektlərinə buraxılmalıdırlar.

51. Aşağıdakı müddətlərdə balıq ovu qadağandır:

Şabran limanında yanvarın 1-dən iyunun 15-nə qədər;[8]

körpə balıqların buraxılışı zamanı Şirvan nərəbalıqartırma zavodunun nohurlarından Baş Şirvan kollektorunun mənsəbinə kimi sahədə iyun ayının 1-dən iyulun 20-nə qədər;[9]

Mingəçevir şəhər körpüsündən Varvara su anbarının sahillərinə kimi 10 km-lik ərazidə aprelin 1-dən 30-na qədər;

Kür çayı ilə əlaqəsi olan su hövzələrində mayın 1-dən iyunun 30-nə qədər;

Azərbaycan Respublikası ərazisində Xəzərə axan bütün çaylarda mayın 1-dən iyunun 30-na qədər;

krevetlərin kürüləmə müddətində iyun ayının 1-dən iyulun 1-nə qədər;

Şabran limanının Xəzər dənizi ilə birləşdirən kanalın və onun mənsəbindəki hər iki tərəfə 1 km, dənizə doğru 2 km-lik ərazilərdə yanvarın 1-dən avqustun 15-nə qədər;

xərçəng ovu mart ayının 1-dən iyulun 31-nə qədər.

52. İdman və həvəskar balıq ovuna 6-cı bənddə göstərilən sahələr və 9-cu bənddə göstərilən müddətlər istisna olmaqla, Azərbaycan Respublikasının bütün su obyektlərində icazə verilir.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 29 iyun 2005-ci il tarixli 122 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 6, maddə 558**)
2. 8 aprel 2006-cı il tarixli 100 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 4, maddə 370**)
3. 13 dekabr 2007-ci il tarixli 200 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 12, maddə 1336**)
4. 10 iyun 2008-ci il tarixli 134 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, №6, maddə 586**)
5. 25 iyun 2010-cu il tarixli **122** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 6, maddə 566**)
6. 26 aprel 2016-cı il tarixli **172** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Azərbaycan” qəzeti, 5 may 2016-cı il, № 96, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 4, maddə 826**)

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 13 dekabr 2007-ci il tarixli 200 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 12, maddə 1336**) ilə «Azərbaycan Respublikasında balıq ehtiyatlarının mühafizəsi və balıq ovu Qaydaları»nın 12-ci bəndinin on üçüncü abzasından, 26-cı bəndinin birinci və ikinci abzaslarından, 27-ci, 30-33-cü bəndlərindən «**xüsusi**» sözü çıxarılmışdır.

[2] 26 aprel 2016-cı il tarixli **172** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Azərbaycan” qəzeti, 5 may 2016-cı il, № 96, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 4, maddə 826**) ilə “Azərbaycan Respublikasında balıq ehtiyatlarının mühafizəsi və balıq ovu Qaydaları”nın 6-cı hissənin dördüncü və altıncı abzaslarında “**balıq ovlayan**” sözləri “**balıq və digər su bioresurslarının ovunu həyata keçirən**” sözləri ilə əvəz edilmişdir.

[3] 29 iyun 2005-ci il tarixli 122 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 6, maddə 558**) ilə "Azərbaycan Respublikasında balıq ehtiyatlarının mühafizəsi və balıq ovu Qaydaları"nın 7-ci bəndinin beşinci abzasında "Meliorasiya və Su Təsərrüfatı Komitəsinin" sözləri "Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Meliorasiya və Su Təsərrüfatı Agentliyinin" sözləri ilə əvəz edilmişdir.

[4] 8 aprel 2006-cı il tarixli 100 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 4, maddə 370**) ilə "Azərbaycan Respublikasında balıq ehtiyatlarının mühafizəsi və balıq ovu Qaydaları"nın 7-ci bəndinin beşinci abzasında "Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Meliorasiya və Su

Təsərrüfatı Agentliyinin" sözləri "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin" sözləri ilə əvəz edilmişdir.

[5] 26 aprel 2016-cı il tarixli **172** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 5 may 2016-cı il, № 96, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 4, maddə 826**) ilə "Azərbaycan Respublikasında balıq ehtiyatlarının mühafizəsi və balıq ovu Qaydaları"nın 10-cu hissənin ikinci abzasında "**balıq ovlayanlara**" sözləri "**balıq və digər su bioresurslarının ovunu həyata keçirənlərə**" sözləri ilə əvəz edilmişdir.

[6] 26 aprel 2016-cı il tarixli **172** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 5 may 2016-cı il, № 96, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 4, maddə 826**) ilə "Azərbaycan Respublikasında balıq ehtiyatlarının mühafizəsi və balıq ovu Qaydaları"nın 18-ci hissədə "**Balıq ovlayanlara**" sözləri "**Balıq və digər su bioresurslarının ovunu həyata keçirənlərə**" sözləri ilə əvəzedilmişdir.

[7] 26 aprel 2016-cı il tarixli **172** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 5 may 2016-cı il, № 96, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 4, maddə 826**) ilə "Azərbaycan Respublikasında balıq ehtiyatlarının mühafizəsi və balıq ovu Qaydaları"nın 46-cı hissənin beşinci abzasında "**balıq ovlayanlar**" sözləri "**balıq və digər su bioresurslarının ovunu həyata keçirənlər**" sözləri ilə, altıncı abzasında "**balıq ovlayanların**" sözləri "**balıq və digər su bioresurslarının ovunu həyata keçirənlərin**" sözləri ilə əvəz edilmişdir.

[8] 25 iyun 2010-cu il tarixli **122** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 6, maddə 566**) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında balıq ehtiyatlarının mühafizəsi və balıq ovu Qaydaları"nın 17-ci bəndinin ikinci abzasında və 51-ci bəndinin ikinci və səkkizinci abzaslarında "**Dəvəçi**" sözü "**Şabran**" sözü ilə əvəz edilmişdir.

[9] 10 iyun 2008-ci il tarixli 134 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, №6, maddə 586**) ilə «Azərbaycan Respublikasında balıq ehtiyatlarının mühafizəsi və balıq ovu Qaydaları»nın 51-ci bəndinin üçüncü abzasında «**Əli Bayramlı**» sözləri «**Şirvan**» sözü ilə əvəz edilmişdir.